Xalq qəzeti.- 2025.- 17 iyul (№ 145).- S.12.

# “Kukla aktyorlar” istirahətə gedirlər



**Azərbaycan Dövlət Kukla Teatrında 93-cü mövsümün bağlanışı və milli mətbuatın 150 illiyi münasibətilə media nümayəndələri üçün təsis olunmuş “Teatrın dostu” mükafatının təqdimolunma mərasimi keçirildi.**

Teatrın direktoru, Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadə XQ-yə mövsüm ərzində kollektivin teatra qazandırdığı uğurlardan danışarkən dedi:

– 2025-ci il kollektivimiz üçün olduqca zəngin olub. İlk növbədə, Türkiyədə IV Beynəlxalq Hadi Poyrazoğlu Kukla və Qaragöz Festivalında iştirak etdik. Teatr heyəti aprelin 21-dən 26-dək Türkiyədə səfərdə oldu, tamaşaçılara “Cırtdanın Türkiyə macəraları” adlı tamaşa-konsert təqdim olundu.

Daha sonra 20-26 may 2025-ci il tarixlərində Qazaxıstanın Almatı şəhərində “Orteke” VII Beynəlxalq Kukla Teatrları Festivalında “Melisa” tamaşası ilə çıxış etdik. Təmsilçilərimiz 10-16 iyun tarixlərində Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən II Beynəlxalq “DEMMENİFEST - 2025” Kukla Teatrları Festivalında da uğurlara imza atdılar.

Daxili qastrol proqramı çərçivəsində Göyçay, İsmayıllı, Lənkəran şəhərlərinə və işğaldan azad olunmuş torpaqlarımıza qastrol proqramlarını reallaşdırdıq. Beləcə, Zəngilan, Laçın, Şuşa, ardınca Füzuli və Ağdam şəhərlərində də fərqli tamaşa-konsert proqramları ilə çıxışlar etdik.

Teatrın direktoru ilin axırınadək daha 3 səhnə əsərinin hazırlanacağını və daha 2 beynəlxalq festivalda iştirak edəcəklərini də diqqətə çatdırdı.

Sonda teatrın baş direktoru Rəşad Əhmədzadə tərəfindən Milli Məclisin deputatları və media təmsilçilərinə “Teatrın dostu” rəmzi mükafatı təqdim olundu.

Tədbir musiqi nömrələri ilə davam etdi. Xatirə şəkilləri çəkildi.

***Fidan SALMANOVA***
***XQ***